*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 oktyabr 2019-cu il № 79 (2396) Qiyməti 30 qəpik


Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Ərazi bütövlüyümüzlə bağlı heç bir kompromisdən söhbət gedə bilməz

*Bu gün Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının uğurlu icrası hər bir vətəndaş öz həyatında hiss edir. Bu baxımdan qaçqın və məcburi köçkünlərə göstərilən xüsusi qayğı da böyük əhəmiyyət daşıyır. Ulu öndər Heydər Əliyev bu qəbildən olan insanlara daim diqqət və qayğı ilə yanaşıb, onların sosial müdafiəsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görüb.*



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da fəaliyyətlərində qaçqın və məcburi köçkünlərə diqqət və qayğını davam etdirirlər. 2003-cü ildən bu günədək Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalayıb, bir çox proqramlar qəbul edilib. Nəticədə dövlət səviyyəsində bu istiqamətdə atılan addımlarla qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirilib.

Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksi də ölkə rəhbərliyinin bu qəbildən olan fəaliyyətinin tərkib hissəsidir.

Oktyabrın 8-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Komplekslə yaxından tanış olduqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəridə Cabbarovanın ailə üzvləri ilə görüşüb söhbət ediblər.

Söhbət zamanı Prezident İlham Əliyev bu qəbildən olan komplekslərin tikintisini və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımları Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının əsas xarakterik xüsusiyyətlərindən biri kimi dəyərləndirib. Azərbaycanda məcburi köçkünlərə göstərilən diqqət və qayğının səviyyəsini çox yüksək qiymətləndirən dövlət başçısı ölkəmizdə bu sahədə aparılan siyasətin bir nümunə kimi göstərildiyini qeyd edib. Prezident bildirib ki, bu bizim sosial siyasətimizin nəticəsidir və bundan sonra da ardıcıl olaraq bu siyasət aparılacaq: "O ki qaldı, şəhid ailələrinin sosial müdafiəsinə, bu, daim diqqət mərkəzindədir. Şəhid ailələri üçün həm maddi təminat təşkil edilib, eyni zamanda, onlara mənzillər verilir. Minlərlə şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin edilib. Qarabağ döyüşlərində fiziki imkanlarını itirmiş soydaşlarımıza bu il 600 avtomobil, son illərdə isə minlərlə avtomobil verilib. Mən deyə bilərəm ki, Azərbaycanda bu kateqoriyadan olan insanlara dövlət tərəfindən göstərilən qayğı doğrudan da bir örnəkdir. Çünki bu gün biz də, siz də bütün dünyada gedən prosesləri izləyirik, görürük ki, müxtəlif ölkələrdə qaçqınlar böhranı yaşanır, o cümlədən Avropada və o qaçqınlar hansı vəziyyətdə yaşayırlar. Onların bir çoxu dənizdə batır, bir çoxu isə elə bil ki, xüsusi qəfəs içində saxlanılır. Onlara qeyri-insani münasibət göstərilir, şəxsiyyəti alçaldılır və bir çoxları tamamilə yararsız yerlərdə yaşayır. Televizorda bunu görürük. Mən 2003-cü ildə bəyan etmişdim ki, prezident seçilərəmsə, ilk növbədə, qaçqın şəhərciklərini ləğv edəcəyəm. Çünki tamamilə bizə yaraşmayan bir mənzərə idi. Düzdür, o vaxta qədər bizim maddi imkanlarımız yox idi ki, bunu edək. Ona görə bunları biz 2007-ci ildə ləğv etdik, bir dənə də qalmadı. Ondan sonra keçdik yataqxanalara, məktəblərə, uyğunsuz binalarda yaşayan soydaşlarımızın problemlərinin həllinə. İndi hər il bu məqsədlə ancaq tikinti üçün yüz milyonlarla manat ayrılır. Bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Biz hamımız əminik ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bizim gücümüz də artır, əhalimiz də artır. Bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib. İllər keçəcək, əhalimiz daha da artacaq, gücümüz daha da artacaq və istədiyimizə nail olacağıq."

Ölkə başçısı xüsusi vurğulayıb ki, bu yolda əsas məsələ bu gün hələ də işğal altında olan torpaqlar azad ediləndən sonra orada yeni binaların, kəndlərin, şəhərlərin salınmasıdır. "Bunu da biz edəcəyik, necə ki, vaxtilə işğal altında olmuş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisində yerləşən Şıxarx qəsəbəsində bu gün gözəl bir şəhərcik salınıb. Orada da 1000-dən çox ailə məskunlaşıb. Aprel döyüşləri nəticəsində azad edilmiş torpaqlarda yeni qəsəbə salınıb - Cocuq Mərcanlı qəsəbəsi, hansı ki, bu gün Azərbaycan xalqının əyilməz ruhunun, iradəsinin təcəssümüdür. Evlərlə təmin edilmiş soydaşlarımız, - onların bir çoxu uzun illər Biləsuvarda salınmış köçkün şəhərciyində yaşayıb, - böyük həvəslə öz doğma torpaqlarına qayıdıblar. Bu gün orada həyat qaynayır, əkin-biçin prosesi gedir, abadlıq işləri aparılır, iş yerləri yaradılır".

Prezident İlham Əliyev onu da qeyd edib qeyd-şərtsiz Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. "Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən tanınır və biz ardıcıl olaraq bu istiqamətdə öz siyasətimizi aparırıq. Ərazi bütövlüyümüzlə bağlı heç bir kompromisdən söhbət gedə bilməz. Bu, danışıqlar mövzusu deyil və olmayacaq. Daha da güclü olmalıyıq və güclənirik. Həm iqtisadi gücümüz artır, eyni zamanda, vətəndaşlarımızın əyilməz iradəsi, öz yurdundan didərgin salınan soydaşlarımızın əzmi torpaqlarımızın azad olunacağı günü yaxınlaşdırır".

Sonda Azərbaycan Prezidenti İlham Əliyev "Valday" Diskussiya Klubunun növbəti iclasında etdiyi çıxışa da toxunub. "Dağlıq Qarabağ münaqişəsi ilə bağlı cəmiyyətdə vahid yanaşma var. Bizim haqq işimizi mən bütün kürsülərdə arqumentlərlə, tarixi faktlarla, reallıqlarla, beynəlxalq hüquq əsasında müdafiə edirəm və bu arqumentlərə qarşı hər hansı bir irad tutmaq qeyri-mümkündür. Çünki mən həqiqəti deyirəm və bunu elə kürsülərdən deyirəm ki, bütün dünya eşitsin. Ermənistanın baş naziri Xankəndidə yığılmış bir neçə adamın qarşısında o cəfəng sözləri demişdir. Mən başqa bir beynəlxalq tədbirdə ona cavab verə bilərdim. Amma o tədbirin auditoriyası tutaq ki, 1000 nəfər, 2000 nəfər olardı. Mən onu elə bir yerdə dedim ki, hər kəs eşitsin - canlı efirdə, Rusiyada, mötəbər "Valday" Klubunun panelində dedim və bunu bütün dünya eşitdi. Yəni, sizə deyim ki, əgər işlər məhz təmkinlə, ağılla qurulursa, zərbələr də dəqiq olur. Elə zərbə vuruldu ki, o zərbədən çətin ki, ayılsınlar. Çünki kontrarqument yoxdur, ancaq yalan-palan danışmaqla düzəlmir. Əvvəllər - münaqişə ilə bağlı məlumat olmayan dövrdə, əlbəttə, bütün yalanları yayırdılar. Hər bir ölkədə onların diaspor təşkilatları var idi, bizim isə heç nəyimiz yox idi. Ona görə münaqişə ilə bağlı təhrif edilmiş faktları onlar ortaya qoymuşlar və bir çox hallarda nail olmuşlar ki, onlara inansınlar. Bu gün biz informasiya dövründə, internet dövründə yaşayırıq. Həqiqət var və bunu mən çatdırmışam. Hər kəs bilir ki, aranlı-dağlı Qarabağ əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq tərəfindən tanınan Azərbaycan torpağıdır və Qarabağ Azərbaycandır və nida işarəsi, vəssalam".

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın və Rusiyanın Hərbi prokurorluqları arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Rusiya Federasiyası Baş prokurorunun müavini - Rusiya Federasiyasının Baş Hərbi prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Valeri Georgiyeviç Petrovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdədir.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyəti Azərbaycan Respublikası Baş prokurorunun müavini - Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyevin rəhbərlik etdiyi heyətlə birlikdə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə olunmaqla "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Rusiya Federasiyasının Baş Hərbi prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan Respublikası Hərbi prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Qonaqlar əvvəlcə Respublika Hərbi Prokurorluğunun inzibati binasındakı "Heydər Əliyev guşəsi"ni ziyarət edib, Ulu Öndərin əziz və unudulmaz xatirəsini dərin ehtiramla anaraq, büstü önünə əklil qoyublar. Nümayəndə heyətinə böyük şəxsiyyətin zəngin və mənalı həyatı, çoxşaxəli fəaliyyəti və misilsiz xidmətləri barədə ətraflı məlumat verilib.

Sonra hər iki ölkənin Hərbi prokurorluqlarının nümayəndə heyətlərinin iştirakı ilə brifinq keçirilib.



Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev brifinqdə çıxış edərək ölkələrimizin prokurorluq orqanları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edən səfərlərin əhəmiyyətini vurğulayıb. Rəhbərlik etdiyi nümayəndə heyətinin ötən il iyunun 4-7-də Rusiyaya səfərini məmnunluqla xatırlayan Xanlar Vəliyev göstərilmiş yüksək qonaqpərvərliyə, səmimi və mehriban münasibətə görə Baş Hərbi prokuror Valeri Petrova bir daha minnətdarlığını bildirib. Hərbi prokuror ulu öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış müdrik siyasətini yeni müstəvidə və dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş uğurlardan və görülən böyük işlərdən, dövlətimizin daha da qüdrətlənməsindən, xalqımızın maddi və sosial rifah halının davamlı olaraq yaxşılaşdırılmasından bəhs edib.

Əldə olunan nailiyyətlər və qazanılan ardıcıl uğurlar fonunda ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların və icra olunan mütərəqqi tədbirlərin bu sahədə də yeni mərhələnin başlanmasını, həmçinin penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin dövrün tələblərinə uyğun yenidən qurulmasını şərtləndirdiyini bildirən Xanlar Vəliyev Prezident İlham Əliyevin penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, müasir texnoloji vasitələrin tətbiq edilməsi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamdan və özündə müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək üçün məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsini, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılmasını, məhkəmə icraatının effektivliyinin yüksəldilməsini, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsinin təmin olunmasını, süründürməçiliyin, eləcə də digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlərin gücləndirilməsini ehtiva edən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmandan və sözügedən normativ hüquqi aktların əhəmiyyətindən danışıb.

Respublika Hərbi prokuroru bildirib ki, ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq təcavüzkar erməni millətçiləri tərəfindən Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddialarının irəli sürülməsi və qondarma Dağlıq Qarabağ probleminin ortaya atılması xalqımıza qarşı soyqırımın törədilməsi, azərbaycanlıların kütləvi şəkildə qırğını, əsrlərboyu yaşadığı tarixi ərazilərindən, doğma torpaqlarından deportasiyası, şəhər və rayonlarımızın talan edilməsi, mədəniyyət abidələrimizin dağıdılması və milli genofondumuzun məhvinə yönəlmiş digər qəsdlərlə nəticələnib, Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan ərazilərinin 20 faizi işğal olunub. Etnik təmizləmə siyasətinin aparılması bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi ilə nəticələnib. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində törədilmiş sülhə və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlər üzrə istintaqın aparılması və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyənləşdirilərək mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədilə 2003-cü il dekabrın 18-də Azərbaycan Respublikası Baş Prokurorunun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlərinin vahid əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılıb. 2005-ci il mayın 5-dən isə həmin cinayət işinin istintaqı ibtidai araşdırmaya prosessual rəhbərlik Hərbi prokurora həvalə edilməklə, Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılıb.

Ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirən hər iki dövlətin Hərbi prokurorları bunun tarixən xalqlarımız və dövlətlərimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə formalaşmış səmimi münasibətlərə söykənməsini qeyd ediblər. Bununla əlaqədar ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin xalqlarımızın rifahı naminə gördükləri nəhəng işlər xüsusi vurğulanıb.

Rusiya Federasiyasının Baş Hərbi prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Valeri Georgiyeviç Petrov göstərilən yüksək diqqətə, səmimi qonaqpərvərliyə və doğma münasibətə görə dərin minnətdarlığını bildirib və məmnunluğunu ifadə edib.

Sonra hər iki ölkənin Hərbi prokurorları rəhbərlik etdikləri Hərbi Prokurorluq orqanlarının strukturu, fəaliyyət istiqamətləri, qanunların icra və tətbiqinə nəzarətlə bağlı gördüyü işlər, o cümlədən məhkəməyədək cinayət təqibinin həyata keçirilməsi zamanı Hərbi Prokurorluq işçilərinin fəaliyyəti və cinayət işlərinə məhkəmələrdə baxılmasında hərbi prokurorların iştirakı barədə ətraflı məlumat verdilər.

Daha sonra hər iki ölkənin Hərbi prokurorluqlarının fəaliyyətlərinin təşkili məsələləri ilə əlaqədar "İki dövlətin hərbi-hüquq orqanları arasında qarşılıqlı faydalı əlaqələrin inkişafı", "Peşəkar dialoqun davam etdirilməsi və kadrların hazırlığı sahəsində təcrübənin mübadiləsi", "Korrupsiya ilə mübarizə və onun qarşısının alınması istiqamətində görülən işlər" və "Prokurorluq, o cümlədən Hərbi Prokurorluq orqanlarının fəaliyyətinin təşkili" mövzularında çıxışlar dinlənilib, nümayəndə heyətlərinin fəaliyyət istiqamətləri üzrə sualları cavablandırılıb, ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə, həmçinin hüquqi sahədə həm ikitərəfli, həm də beynəlxalq səviyyədə qarşılıqlı səmərəli fəaliyyət, o cümlədən hüquqi əməkdaşlıq sahəsində mövcud münasibətlər və onlardan irəli gələn hüquq və vəzifələr müzakirə edilib.

Brifinqdən sonra qonaqlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun beynəlxalq əlaqələri barədə məlumatları əks etdirən stendlərlə tanış olublar.

Daha sonra nümayəndə heyəti Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında "Soyqırımı" Memorial Muzeyində olub. Qonaqlara burada saxlanılan və tarixi həqiqətləri əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib.

Azərbaycanın tarixi ərazilərinin Ermənistanın işğalı altında olmasını, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətində yaşamasını bir daha xatırladan Hərbi prokuror Xanlar Vəliyev işğal altındakı torpaqlarımızın Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti və qətiyyətli iradəsi sayəsində azad edilərək respublikamızın ərazi bütövlüyünün bərpa olunacağına, soydaşlarımızın tarixi torpaqlarına, doğma yurdlarına qayıdacaqlarına və xalqımıza qarşı xüsusilə ağır cinayətlər törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb olunacaqlarına əminliyini ifadə edib.

# ABŞ səfiri "Saber Junction-19" təlimlərində iştirak etmiş hərbi qulluqçularımızla görüşüb





ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti Almaniyanın "Hohenfels" təlim mərkəzində keçirilən "Saber Junction-19" çoxmillətli briqada taktiki təlimlərində iştirak etmiş Azərbaycan Ordusunun hərbi qulluqçuları ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edən səfir Ö.Litzenberq Azərbaycan Respublikası ilə NATO arasında tərəfdaşlığın əsasının 1994-cü ildən qoyulduğunu, bu müddət ərzində Azərbaycan Ordusunun hərbi qulluqçularının bir çox təlim və kurslarda iştirak etdiyini bildirib. Diplomat, həmçinin vurğulayıb ki, keçirilən təlimlər hərbi qulluqçuların bilik və bacarıqlarının təkmilləşməsində böyük rol oynayır. ABŞ səfiri təlimdə iştirak edən hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulayıb.

Daha sonra polkovnik Siyavuş Mustafayev "Saber Junction-19" çoxmillətli briqada taktiki təliminin vacibliyindən danışaraq bu kimi təlimlərin tərəfdaş ölkələr arasında təcrübə mübadiləsi aparılması, əməliyyat uyarlılığının təmin edilməsi və döyüş hazırlığının yüksəldilməsi istiqamətində böyük önəm daşıdığını bildirib.

# "Xidmətinə görə sağ ol, əsgər!"

*Əsgər sözü harada deyilməsindən asılı olmayaraq hər eşidəndə hamımızın qürur mənbəyinə çevrilir. Onlar Vətən qarşısında müqəddəs andı içərək bu adın ucalığını dərindən duyurlar. Vətən adlı müqəddəs torpağı qorumağı şərəf borcu bilirlər. Hər kəs yaxşı bilir ki, bu ali vəzifə bütün mənəvi dəyərlərimizdən üstündür. Çünki Vətən hamımızındır və bu torpağın vətəndaşı olaraq əcdadlarımızdan miras qalan əmanəti göz bəbəyi kimi qoruyub gələcək nəsillərə ötürməliyik.*





Vətəni sevmək, qorumaq hər birimizin ən ümdə vəzifəsidir. Vətən qarşısında müqəddəs övladlıq borclarını layiqincə yerinə yetirən gənclərimizin hərbi xidmət dövründə qazandıqları məziyyətlər onların gələcək həyatına da təsirsiz ötüşmür. Vətənimizə övladlıq borcundan şərəflə çıxan bu gənclər gələcək həyatlarında cəmiyyətimizin fəal vətəndaşları sırasında layiqli yer tuturlar.

"N" hərbi hissəsində xidmətini başa vuran əsgərlərin yola salınması münasibətilə "Xidmətinə görə sağ ol, əsgər!" adlı tədbir keçirildi. Tədbirdə hərbi hissənin zabitləri və şəxsi heyəti iştirak etdilər.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik Elşad Əbilov tədbiri açaraq əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu prosesinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdi. Ordumuzun işğal olunmuş torpaqlarımızı hər an azad edə biləcəyini, bunun üçün ən müasir hərbi texnika və silahlara malik olduğunu diqqətə çatdırdı. Gənclərimizin Vətənin müdafiəsinə hər an hazır olduqlarını, bunu zamanzaman öz əməlləri ilə sübut etdiklərini vurğuladı. Hər an Ali Baş Komandanın əmri ilə mübariz, mərd, qorxubilməz əsgərlərimizin üçrəngli, ay-ulduzlu bayrağımızı işğal altında olan ərazilərimizdə dalğalandıracaqlarına əmin olduğunu qeyd etdi.

Zabit ümummilli liderimiz Heydər Əliyevin "Vətənini müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir" kəlamını xatırladaraq qeyd etdi ki, Vətən sevgisi öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirməkdən başlayır. "Əsl Vətən sevgisi dildə deyil, əməldə ifadə olunur. İnanırıq ki, bizim hərbi hissədə qulluq edən əsgərlər mülki həyatda da layiqli yerlərini tutacaqlar".

Çıxış edənlər gənc əsgərlərə Vətənə layiqli əsgər olmağı, torpaqlarımızın keşiyində ayıqsayıq dayanmağı tövsiyə etdilər, tərxis olunanlara gələcək həyatlarında uğurlar arzuladılar. Bildirdilər ki, döyüş qabiliyyəti, vətənpərvərlik ruhu çox yüksək olan Azərbaycan əsgəri işğal altında olan ərazilərimizi hərb yolu ilə azad etmək gücünə malikdir.

2017-ci il fevralın 24-dən 25-nə keçən gecə düşmən təxribatının qarşısını alarkən şəhid olmuş hərbi qulluqçularımızın həyat fəaliyyətini əks etdirən videoçarx nümayiş olundu.

Tədbirin sonunda döyüş növbəsinə daxilolma mərasimi keçirildi. Xidmətini başa vurmuş əsgərlər silah və zirehli gödəkçələrini döyüş növbəsinə yeni daxil olmuş əsgərlərə təhvil verərək, onlara bu şərəfli yolda uğurlar və qələbə arzuladılar.

Xidmət müddətini başa vurmuş əsgərlərdən fərqlənənlər fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 oktyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskevan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Baş Qərvənd, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Ağdam rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***11 oktyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskevan, Voskepar kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# Müqəddəs vəzifəni yerinə yetirirəm - Vətəni qoruyuram

*Qara qaya səmtində buludlar sıxlaşanda narahat olmağım leytenant Nəsimi Həsənlinin diqqətindən yayınmayıbmış. Qayğıkeşliklə, bir qədər də ərklə dedi ki, narahat olmayın, yağış yağmayacaq. Xidmətim müddətində ərazini də yaxşı tanımışam, təbiəti də. O buludlar yağış buludu deyil...*



Yağış yağmadı. Əsgərlərlə səngərli söhbətlərimiz könül xoşluğuyla keçdi.

Nəsimiylə də söhbətləşə bildik.

Nəsimi Beyləqanın Ağayrı kəndində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Hərbçi olmağı uşaqlıqdan qərara alıb. Bu da səbəbsiz deyil. Əmisi Anar ikinci Kəlbəcər əməliyyatında döyüşlərdə itkin düşmüşdü. Ataanasından eşitmişdi. Bu, onun uşaq təfəkküründə qəribə duyğular yaratmışdı, bəlkə də müharibənin nə olduğunu o illərdə anlamışdı Nəsimi, özünə də bəlli deyil. Bəlli olan budur ki, Nəsiminin könül mülkündə bir istək qımıldanmışdı - hərbçi olmaq. Bu istəyi həm də qohumlarının hərbçi olmasına söykənirdi. Onları hərbi mundirdə görəndə Nəsiminin istəyi daha da kükrəyirdi. Ata-anası onun istəyinə xeyir-dua verdi.

Aradan illər keçib. Leytenant Nəsimi Həsənlidən soruşanda ki, əmin döyüşlərdə itkin düşməsəydi, hərbçi olmağı qərara alardınmı? Tərəddüd etmədən dedi ki, bəlkə də bu hadisə mənim peşə seçimimdə müəyyən qədər rol oynayıb. "Ancaq məktəbdə oxuyanda müəllimlərimdən eşitdiklərimin, oxuyub öyrəndiklərimin təsiri daha çox oldu - Meşəli, Ağdaban, Bağanıs Ayrım, Xocalı faciələrini eşitdim. Bundan sonra qətiyyətlə hərbçi olmağı qərara aldım.

2016-cı ilin Aprel döyüşlərində biz də döyüşə getmək istədik. Təbii ki, buna icazə vermədilər. "O döyüşlərdə hərbçilərimizin qazandığı qələbələri biz tamamlayacağıq!" - fikri, amalı təsəllimiz oldu - Nəsimi belə dedi.

- Leytenant rütbəsi aldığım günü heç zaman unutmayacam. O gün uşaqlığımdan xəyalımda olan bir istəyim gerçəkləşmişdi, - Nəsiminin qürurunu sezmək çətin deyil. Bu qürur hərbçi qürurudu. Bu qürur Ali Baş Komandanın əmriylə döyüşəcək zabitin qürurudur, bu qürur qalib gəlmə istəyinin qürurudur...

- Ön xətdə xidmət etmək mənə çox şey öyrətdi. Vətənin müqəddəsliyini ön xətdə daha həssaslıqla hiss etdim...", - Nəsiminin qənaətini ön xətdə xidmət edənlərin hamısının qənaəti bilirəm. Leytenant Nəsimi Həsənli dedi ki, döyüş növbətçiliyi aparan əsgərlərimiz də bu duyğularla xidmət edirlər...

Gənc zabit ordumuzun 100 illiyinə həsr olunmuş paradı xatırlayaraq dedi ki, o parad qüdrətin paradıydı. Böyük Qələbədən sonra keçiriləcək parad daha möhtəşəm olacaq. Bu inamla xidmət edən zabitin amalı, əqidəsi əsgərlərin də düşüncələrinə köçür, şübhəsiz.

Əsgərlərdə komandirlərinə ehtiram, sevgi gördüm. Bir daha əmin oldum ki, gənc zabit üçün hərbi xidmət ömür deməkdir...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Səngərdə döyüş əzmi, qələbə ruhu gördüm

*Ön xətdən reportaj*



## Ruhumuzun fəsli

Payızda əsən yellər görmüşük, ətrini itirməyən gözəl güllər görmüşük, yaylağından aranına dönən ellər görmüşük, ağacların budağından düşən yarpaq görmüşük, rənginə bir qızartı çökən torpaq görmüşük, hamımızın əvəzinə dinən bulaq görmüşük...

Bu il budağından üzülən yarpaq görməmişik, çiçəklərin ətri, rayihəsi özündədi. Bir qələbə istəyiylə məmləkətin həsrət gözü hələ Cıdır düzündədi...

Bu ilin payızı əvvəlkilərə bənzəmir, gəlişində qələbə ovqatı duyulur. Səngərli düşüncələrimin birində demişdim ki, Azərbaycan əsgərinin qələbə qazanacağı fəslə ruhumuzun fəsli deyəcəyik. Elə istərdik ki, bu ilin payızını ruhumuzun fəsli kimi uğurlayaq...

Səngərdə müharibədən, müharibənin fəsadlarından söz açacağıq, qələbədən, qələbəni şərtləndirən amillərdən danışacağıq və deyilənlər birbirini tamamlayacaq: ordunun gücü, qüdrəti, 2016-cı ilin Aprel döyüşləri, Lələtəpə, Bayraqtəpə, ötən ilin Günnüt zəfəri təsdiqlədi ki, Azərbaycanın güclü ordusu var. Güclü ordumuzun şəxsi heyətinin yüksək döyüş hazırlığını yüksək mənəvi-psixoloji hazırlığı tamamlayır. Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətin ifadəsidi.

Bu ilin payızının gəlişi ərəfəsində bu biçim döyüş əzmi Ali Baş Komandanın döyüş əmrinə təşnəlikdi, bu qələbə ruhu torpaqlarımızın işğaldan azad ediləcəyinə içilən anddı, vəddi, qələbəyə zəmanətdi. Bu əzm, bu ruh Lələtəpə, Bayraqtəpə, Günnüt zəfəri ərəfəsində Azərbaycanda yaşanılan döyüş əzminin, qələbə ruhunun davamıdı. Ona görə belə möhtəşəmləşib. Bu möhtəşəmliyi Vətənə sevgi, hərbçi məsuliyyəti, hərbçi-vətəndaş qətiyyəti yaradıb. Səngərdə bu dönməz qətiyyətin könüləyatımlı cazibəsində Ali Baş Komandanın döyüş əmriylə yaxın vaxtlarda torpaqlarımızın işğaldan azad ediləcəyindən də danışacağıq.

Ezamiyyətə belə bir ovqatla gedirəm. Bu ovqat əsgərlərin əhatəsində daha könüləyatımlı olacaq, o ovqatda Böyük Qələbənin işartıları, işığı görünəcək...



## Səngərdə döyüş əzmi, qələbə ruhu gördüm

Əsgərlərin əhatəsində bir boy da dikəlirsən, kəlmələşə-kəlmələşə əsgərləşirsən. Əmin olursan ki, bu səngər də Ali Baş Komandanın döyüş əmrinin başlanğıclarından biri olacaq; əsgərlərin baxışları dil açıb deyir: Böyük Qələbənin yolları üstə səngər müvəqqəti dayanacaqdı!..

"Bu ilin payızının gəlişində bir şahanəlik duyulur...", - deyirəm. Əsgərlər göy üzünə, sonra tələsik qarşı tərəfə baxırlar. Zabit Aqil Hüseynov əsgərlərə xitabən deyir:

- Şahanəliyi təkcə gözçəkən mənzərələrlə müəyyənləşdirmək günahdı. Şahanəlik ruhla bağlıdı, hiss etdiyiniz, hiss etdiyimiz şahanəlik ruhumuza gözaydınlığı olacaq. Əminik ki, bu ilin payızını xalqımız qələbə payızı, qələbənin, Böyük Qələbənin payızı kimi yaşayacaq.

Kəlmələr səngərdə arzulanan könül xoşluğu yaradır.

Sözarası 1993-cü ilin dekabrında Murovdağda mayor Qurban Qurbanovla, mayor Bəhram Ləzimovla, mayor İntiqam Mirzəyevlə bu dağın o üzündən camaatın uzaq düşmələrinin sıxıntılarından danışdığımızı da deyirəm. 26 il əvvəlin bir qış gecəsinin kəlmələşməsi, bu kəlmələşmənin mahiyyəti əsgərləri duyğulandırır. O gecə Qurban demişdi ki, Laçının işğalı laçınlılardan, Kəlbəcərin işğalı kəlbəcərlilərdən, Ağdamın işğalı ağdamlılardan əvvəl bizim, biz hərbçilərin sıxıntısıdı.

Əsgər Nurlan Şərifovun dediklərini Azərbaycan əsgərinin düşüncəsi kimi ruhumuza köçürürük:

- O vaxtlar Murovda o mayorun dedikləri hamımızı düşündürəcək. Deyilənlər hərbi xidmətə məsuliyyətin, dövlətə, dövlətçiliyə sədaqətin təzahürüdür. Biz də qaçqınları sıxıntılardan qurtaracaq döyüşlərin, torpaqlarımızı işğaldan azad edəcək döyüşlərin əsgəri olmaq istəyirik.

Əsgər Valeh Bayramov əsgər yoldaşının sözünü ərklə kəsir:

- Gecələri bu istəklə səhər edirik desək, daha doğru olar.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vüqar Ağayev əsgərin fikirlərini həmişə qürurla xatırlayacağım bir mətləblə yekunlaşdırır:

- Nurlanın da, Valehin də dediklərini hər bir əsgərin dedikləri bilin. Bu əsgərlər 2016-cı ilin Aprel döyüşlərində orta məktəbdə oxuyurdular. Qələbənin sevincini yeniyetmə kimi yaşamışdılar. Onların da qüruru yerə-göyə sığmamışdı. Həmin döyüşlərin iştirakçılarının hər birini qəhrəman bilmişdilər, indi də o fikirdədirlər ki, Aprel döyüşlərində əsgərlərin hamısı qəhrəman kimi döyüşüb.

Vüqar bir anlığa susur, nələrisə xatırlayır, qətiyyətlə, inamla sözünə davam edir:

- İstəyirik ki, yeniyetmələr tanımadıqları, tanıyacaqları əsgərlər sırasında bizim əsgərlərimizi də xatırlasınlar...



Eşitmişəm də, duymuşam da qazilərin özü, şəhidlərin ruhu deyir ki, Vətən sevgisi Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətdi, yerə-göyə sığmayan, sığışmayan qətiyyətdi. Bu kəlmələr ön xətdə daha həssaslıqla eşidilir, duyulur. Əsgərlərə bunları da deyirəm.

"Açıq qapı" günündə hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında təzə tanış olduqlarınla da səmimiyyətlə, könül xoşluğuyla kəlmələşirsən. Ön xətdə belə kəlmələşmələr daha düşündürücü olur; təmas xəttində bütün söhbətlərin mahiyyəti Vətən, torpaq kəlmələriylə tamamlanır. Hərbi xidmət ifadəsini Vətən sevgisi ifadəsinin eyni bilənlərin sırasında mən də varam. Bu qənaəti səngərdə əsgərlərə də deyirəm. Zabit əsgərlərə baxır və deyir ki, qazilərin özü, şəhidlərin döyüş yolu bizim hərbi xidmət amalımızın mənəvi söykənclərindəndi. Biz "Necə xidmət etməli?" - sualına cavab olaraq həmişə qazilərin özünün, şəhidlərin ruhunun dediklərini deyirik.

Söhbətə "Açıq qapı" günü ilə başlamışıq, mahiyyət baxımından ordu-ictimaiyyət münasibətlərinin daha da dərinləşməsindən danışırdıq. Deyilən fikirlərin hamısı təsdiqləyir ki, ordu xalqa arxalanır. Arada yenə Vətənə, orduya gərəkli kəlmələr gəzişir. Bu kəlmələrin ifadə etdiyi fikirlərin davamı kimi yenə həmin başlanğıca dönürük. Deyirəm ki, "Açıq qapı" günündə yaşı 90-nı haqlayan ağsaqqaldan eşitdiyim kəlmələri qələbə gününəcən unutmayacam: "Yurd qədri bilən kəsə ata ocağından, doğma yurdundan onon beş addım o tərəf də qürbətdi. Ya zəlzələdən, ya vəlvələdən, isti ocağından, dolu bucağından didərgin düşmək ruhun candan ayrılmağının başlanğıcıdı. Can üzən, ruh sarsıdan bu həsrətin acığına yaşayacam, ay oğul, yaşayacağıq. Mən ömrün də gözəlini sevirəm, ölümün də. Əlim evimin daşına-divarına dəyməmiş ölümə can verməyəm...". Əsgərlərə deyirəm ki, hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında ağsaqqalın özünün dodaqlarını yandıran, bizim düşüncələrimizi qarsılayan kəlmələri daş-daş dikəltdiyi ev-eşiyinə aşırı, bəşəri, yaşarı sevginin ifadəsi kimi dinləmişdim. O ağsaqqalın həsrətini siz sonlandıracaqsınız.

Səngərə bir anlığa kövrəkliklə qoşalaşmış düşündürücü sükut çökür. Başqa bir zamanda başqa bir hərbi hissədə illərin sıxılcımını yaşayan qaçqın atadan eşitdiklərimi də xatırlayıram: Son nəfəsim doğma ocağıma qismət olsa, dünyadan heç bir arzumanım qalmaz.

(Ardı 5-ci səhifədə)

# Səngərdə döyüş əzmi, qələbə ruhu gördüm



(Əvvəli 4-cü səhifədə)

Bayaqkı düşündürücü sükutun davamını yaşamaqdayıq. Bu kəlmələrin nə kəlmələr olduğunu, niyə deyildiyini əsgərlərin düyünlənən yumruqları deyir: Az qalıb - Ali Baş Komandanın əmriylə, döyüşlər o ağsaqqalın da, qaçqın ataların da həsrətinin sonu olacaq...

"Yaşı 90-nı haqlayan qaçqın ağsaqqalı "Açıq qapı" günü hərbi hissəyə təkcə oğlunun nəvəsiylə görüşmək istəyi gətirməmişdi. Əsgərlərə qaçqınların dədə yurduna qayıtmaq istədiyini bir daha demək ərki, bu ərkin səmimiyyəti gətirmişdi", - deyirəm. Zabit sözümə qüvvət kimi deyir:

- Xidmət etdiyim hərbi hissələrdə əsgər babalarıyla da çox söhbətlərim olub. Deyiblər - dinləmişik, demişik - dinləyiblər. Əksəriyyəti hərbi hissəyə məhz sizin dediyiniz həmin səmimi ərklə gəldiyini bildirir. "Hər gəlişimizdə əsgərlərimizin yerişini, duruşunu, baxışını görürük, kəlmələşirik, inamımız, güvəncimiz daha da artır...", - deyiblər. Onu da deyiblər ki, bizi bu inam yaşadır, yəni, Azərbaycan əsgəri dədə yurdunun həsrətini çəkənlərin güvəncidi...

Səngərdə bu güvəncin də, əsgərlərin döyüş əzminin də, qələbə ruhunun da işığını aydınlığıyla görürəm...

Əsgər Əzim Almazov deyir ki, bu yaxınlarda tərxis olunan əsgərlərdən biri asudə vaxtlarda atasının xatirələrini xatırladırdı. "Atam Zəngilanlı günlərindən, Zəngilanın müdafiəsindən, döyüşlərdən danışanda gözləri dolurdu, deyirdi ki, ora qayıdacağım günə dünyaya təzədən gəldiyim gün deyəcəm. Bütün zəngilanlılar da mənim kimi...", - deyirdi. Atalar yurd həsrətini tək yaşamır. Bu elə həsrətdi ki, dədə yurdunun sıxıntılarını görməyənlər də çəkir. Onları bu sıxıntılardan biz qurtaracağıq. Biz buna qadirik...

Kəlmələrin Azərbaycan əsgərinin adından deyildiyinə zərrəcə şübhəm yoxdu. Bu inam bu səngərin zəmanətiylə Azərbaycan əsgərinə, Azərbaycan Ordusunun qüdrətinə inamdı.

Əsgərin dedikləri məni də, əsgər yoldaşlarını da, komandirini də duyğulandırır. Bu, adi xatırlama deyil, bu xatırlamanı Azərbaycan əsgərinin hərbi xidmətinin müharibəni sonlandıracağına inam, inama qətiyyət bilirik. Bu qətiyyət 2016-cı ilin Aprel döyüşlərinin qətiyyətindən zərrəcə fərqlənmir; o qətiyyətin bu səviyyədə yaşadılması döyüş əzmidi.

- Səngərdə gördüyümüz bu döyüş əzmi qələbə ruhudu, - deyirəm. Zabit bir anlığa qarşı tərəfə baxır və əsgərlərə xitabən deyir:

- Belədirmi?

Əsgərlərin sayı qədər "Elədir!", - kəlməsi eşidilir...



Yadıma düşür ki, səngərdə belə bir səslənişi Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş möhtəşəm paraddan az sonra da eşitmişdim. Onda səngərli söhbətdə əsgərlərdən biri paradda göstərilən ən müasir texnikaların, qurğuların, silahların ordunun güc göstəricisi kimi izlənildiyini demişdi. Əsgərin səsində duyulan qürur düşüncələrimizi özünə çəkmişdi. Zabit əsgərlərə xitabən demişdi ki, yoldaşınızın fikrinə nə deyirsiniz? Əsgərlərin hamısı bir ağızdan "Elədir", - demişdi. Eyni kəlmə ayrı-ayrı səngərlərdə müxtəlif məqamlarda səslənsə də, onların arasında ruh ortaqlığı görürəm, hər iki halda bu kəlməni min illərin o üzündən boy göstərən ruhun dedizdirdiyini bildirirəm. Zabit razılıqla gülümsünür, könlümüzə yatan bir fikir deyir:

- Dediyiniz məqamlara ayrılıqda eyni ruhun zərrəsi deyə bilərikmi?

- Düz sözü, sağlam məntiqi etiraf etmək də milli ruha sədaqətdi, - deyirəm, yəni, bu fikrə razılaşmamaq günahdı.

Komandirlərinin səsləndirdiyi fikrin belə dəyərləndirilməsi əsgərlərin könül xoşluğuna dönür. Belə könül xoşluğuyla hərdənbir baxış məsafəsində görünənlərə - düşmənin mövqelərinə, hərdən də göy üzünə baxan əsgərlərin yaşadığı ovqatı səngərin döyüş əzmi, qələbə ruhu bilirəm.

Ötənlərdə milli ruhumuzun qadirliyini bayraqlaşdıraraq yazmışdım: Bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən! Səngərdə gördüyüm döyüş əzmi, qələbə ruhu bu ifadəni yadıma salır; səngərdə gördüyüm ruh da həmin ruhun zərrəsidi. Bu ölçüyəgəlməz zərrədə qüdrət olduğuna yerəgöyə inandığım qədər inanıram.

Məni səngərdən əsgərlərin döyüş əzmi, qələbə ruhu uğurlayır...

...Əsgərlərə "Açıq qapı" günündə yaşı 90-nı aşan ağsaqqaldan eşitdiklərimi xatırlatmışdım. Onda səngərə bir anlığa kövrəkliklə qoşalaşan düşündürücü sükut çökmüşdü.

O sükutu yaradan səbəbi, o səbəbə səbəb olanların sıxıntılarını özümlə aparıram; yaxın vaxtlarda sərhədlərimiz daxilində nə səngər olacaq, nə də belə sükut. Bu əminlik səngərdə gördüyüm döyüş əzminin, qələbə ruhunun əminliyidi...

Niyyətimin, istəyimin boyuna biçilən könül xoşluğu mənimlə şəhərə dönür ki, az sonra hamının olsun, məmləkət bu ilin payızının şahanə gəlişinin yaratdığı könül xoşluğunu Böyük Qələbənin novruzgülü bilsin...

Sərin-sərin əsən yellər, ağacların budağından sürüşən yellər səngərə aparan yolun sağını-solunu sığallayır...

Səngərdən uzaqlaşdıqca mənə elə gəlir ki, ürəyimi burada qoyub gedirəm...



## Qələbə ovqatlıdı bu payızın gəlişi

...Mənə elə gəlir ki, bircə addım da atsam, səngərli söhbətlərin mahiyyətinin harayını eşidəcəm: Hara gedirsiniz?

Ayaq saxlayıram...

Vüqar Ağayevin dediklərini xatırlayıram:

- İstəyirik ki, yeniyetmələr Böyük Qələbəni qazanacaq əsgərlər sırasında bizim əsgərləri də xatırlasınlar.

Vətənə gərəkli niyyətdi, vətənsevərlik niyyətidi, sabahlarımıza ad olası niyyətdi.

Zabit Aqil Hüseynov indi görürmüş kimi əsgərlərə baxmışdı. Bu gözdoyduran baxışlarda təəssübkeşlik də vardı, ehtiram da vardı, sevgi də. Bu baxışların eynini 2016-cı ilin ilkin yazında - döyüşlər ərəfəsində Cocuq Mərcanlıda da gördüyümü demişdim. Zabit gülümsünmüşdü. Bu təbəssümün səmimiliyi də mənə eşitdiklərim qədər könül xoşluğu vermişdi. Zabitin həmin döyüşləri xatırladığına əminəm. Xatırlamışdı və özünün o zabitlərlə, əsgərlərin o əsgərlərlə müqayisə edilməsi onu elə əvvəlki səviyyədə qürurlandırmışdı:

- Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının zəmanətilə deyirəm ki, biz Böyük Qələbəylə nəticələnəcək döyüşlərə tam hazırıq. Çox istərdik ki, döyüş əmri bu payız, elə bu günlərdə verilsin.

Bu ilin payızının qələbə ovqatlı gəlişini ön xətdə yerləşən "N" hərbi hissəsinin zabit və əsgərləri də duyur. Bu duyum döyüş əzmindən, qələbə ruhundan süzülən duyumdu. Ona görə belə ötkəmdi.

Əsgər Valeh Bayramov demişdi ki, biz 2016-cı ilin aprelində Lələtəpə, Bayraqtəpə zəfərlərini qazananların davamçıları olacağıq. Bu əminlik əsgər yoldaşlarının döyüş və mənəvi-psixoloji hazırlığına bələdliyin əminliyidi.

Əsgər Nurlan Şərifov əsgər yoldaşının fikrinin davamı kimi demişdi:

- Bu əminlik həm də istifadəmizdə olan ən müasir silahların istismarını mükəmməl mənimsəməyimizə inamın əminliyidi...

...Günəş qüruba meyillənib...

Payızın ilk ayında ön xətdə əsgərlərlə səmimi mükalimələşmənin məzmunu, mahiyyəti təsdiqləyir ki, hərbi qulluqçular Hərbi anda, Vətənə, dövlətə, dövlətçiliyə xidməti ömrünün mənası bilib xidmət edirlər. Payızın şahanə gəlişində qələbə ovqatı var. İstəyirik ki, builki payız ruhumuzun fəsli olsun...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# İlk hərbi hissənin yaranmasından 28 il ötür

*Azərbaycan Ordusunun müasir hərb tarixinə şərəfli səhifələr yazan ilk hərbi hissənin yaranmasından 28 il ötür. Bu münasibətlə "N" hərbi hissəsinin müharibə veteranları şurasının üzvləri, keçmiş döyüşçüləri, ictimaiyyət nümayəndələri oktyabrın 9-da Şəhidlər xiyabanını ziyarət edərək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.*



Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının binasında keçirilən tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dövlət himni səsləndirilib.

Tədbirdə hərbi hissənin sabiq komandiri, müharibə veteranları şurasının sədri, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək hərbi hissənin yaranma tarixindən, keçdiyi şanlı döyüş yolundan danışıb. Bildirib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə formalaşan ilk hərbi birləşmə 1991-ci il oktyabrın 9-da Şıx qəsəbəsində sovet ordusuna məxsus hərbi hissələrdən birinin əsasında yaradılıb və Qarabağda döyüşlərə başlayıb. Hərbi hissənin əsas özəyini vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunları təşkil ediblər. Hərbi hissə Şuşa rayonunun kəndlərinin, Ağdərənin, Kərkicahanın, Tərtərin, Xocalının, Kəlbəcərin müdafiəsi uğrunda döyüşlərdə, Daşaltı əməliyyatında, Füzuli və Murovdağ istiqamətindəki hücum əməliyyatlarında iştirak edib. Hərbi hissənin şəxsi heyəti Laçın və Kəlbəcər rayonlarında gedən ağır döyüşlərdə itkilər verməsinə baxmayaraq, yüksək əzmkarlıq, qəhrəmanlıq və rəşadət göstərib. Ümumiyyətlə, hərbi hissə Qarabağ müharibəsində ən gərgin nöqtələrdə vuruşaraq düşmənə qarşı igidliklə mübarizə aparıb.

Diqqətə çatdırılıb ki, Milli Ordunun ilk hərbi hissəsi Laçın və Kəlbəcər rayonlarının müdafiəsi zamanı dağlıq ərazilərdə döyüşlər apararaq iki ay müvəffəqiyyətlə müdafiə olunub, dinc sakinlərin təxliyəsinə şərait yaradıb. Çoxlu sayda şəhid verən hərbi hissənin şəxsi heyəti müxtəlif fəxri adlar və mükafatlarla təltif olunub. Belə ki, 4 nəfər "Azərbaycanın Milli Qəhrəmanı" adına, 11 nəfər "Azərbaycan Bayrağı" ordeninə, 18 nəfər isə "İgidliyə görə" medallarına layiq görülüb.

Ehtiyatda olan polkovnik-leytenant İntiqam Mirzəyev, ehtiyatda olan polkovnik-leytenant İbrahim Məsimoğlu, hərbi hissənin digər zabit və əsgərləri çıxışlarında işğal altındakı torpaqlarımızı erməni tapdağından azad etmək üçün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmrinə hər an hazır olduqlarını bildiriblər. Çıxışlarda hərbi hissənin keçdiyi döyüş yolundan söhbət açılıb, hərbçilərimizin göstərdikləri qəhrəmanlığın təbliğinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində vacib rol oynadığı vurğulanıb.

Tədbirdə Azərbaycan Ordusunun Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqlara həsr olunmuş "Ultimatum" sənədli filmi nümayiş etdirilib.

Mərasim Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin konsert proqramı ilə başa çatıb.

**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# İnamlı addımlar - uğurlara aparan yollar



Hərbi hissənin geniş, gözoxşayan meydanında sıra hazırlığı keçən əsgərlərin addım səsləri uzaqdan eşidilirdi. Bu ritmik səslər dalğa-dalğa ətrafa yayılaraq yaxınlıqdakılarda xoş ovqat yaradırdı. Əsgərlərin eyni anda elədikləri əl-ayaq hərəkətləri, cəld sağa-sola dönmələri onların bacarıq və peşəkarlıqlarından xəbər verirdi.

Mənə xoş olan, qəlbimə, ürəyimə sığal çəkən bu gözəl və dəyərli fikirlər içində addım-addım sıra hazırlığı keçən şəxsi heyətə yaxınlaşıram. Addımlarımı onların ritmlərinə uyğunlaşdırmağa çalışıram. Yaxınlaşdıqca əsgərlərin addım səslərini daha aydın eşidirəm. Eşitdikcə də qəlbim iftixarla dolur. Azərbaycan əsgəri adını şərəflə daşıyan bu oğulların üz-gözündən hünər və rəşadət yağır. Onlara çatmağa bir neçə addım qalmış manqa komandiri bizə yaxınlaşıb özünü təqdim edərək şəxsi heyətin sıra hazırlığı məşğələsi keçdiyi barədə məlumat verdi.

Aramızda olan qısa söhbət zamanı öyrənirik ki, Cahid Quluyevin əyninə forma geyindiyi on aydır. On aydır ki, böyük qürur və şərəflə Azərbaycan əsgəri adını daşıyır. Arxada qalan zaman onun üçün çox səmərəli keçib. Təlim-məşqlərdə fəal iştirak edən Cahid biliklərini artırıb, silahların sirlərinə dərindən yiyələnib, əsgər üçün zəruri olan hərbi vərdişləri mənimsəyib. Bu gün isə əxz etdiklərini xidmətdə ilk addımlarını atan əsgər dostlarına öyrədir. Öyrətdikcə özü də püxtələşib zənginləşir. Daha da bacarıqlı və bilikli olur.

- İnsan istər hərbçi olsun, istərsə də mülki, bilik əldə etmək üçün daim öz üzərində çalışmalıdır ki, çalışqanlığı ilə istədiyinə nail olsun. Fəxr edirəm ki, bu gün əsgərlərə hərbi bilik və vərdişləri öyrədirəm. Bilirəm ki, bu çox məsuliyyətli bir işdir. Ona görə də məşğələnin gedişinə diqqətlə yanaşıram. Çalışıram ki, dərsin hər dəqiqəsindən səmərəli istifadə edim. Əsgərlərimiz qısa müddət ərzində həm hərbi bilikləri öyrənib, həm silahların sirlərinə yiyələnib, həm də sırada düzgün addımlamağı mənimsəyiblər. Əlbəttə, bütün bu uğurlara birdənbirə nail olmamışıq. Bunları şəxsi heyətə mərhələ-mərhələ öyrətmişik. Budur, əldə olunan nəticə göz qabağındadır. Əsgərlərimizin sırada yerişinə, addımlamağına baxanda ürəyim açılır. Deməli, bu yolda çəkilən zəhmət hədər getməyib. Onu da deyim ki, sıra hazırlığı zamanı əsgərlərə məşğələ keçən zabitin, çavuşun özünün bacarıq və səriştəsindən də çox şeylər asılıdır. Döyüş vərdişlərinin aşılanması, öyrədilməsi daim komandanlığın diqqət mərkəzindədir. Bu mühüm iş daim peşəkarlara tapşırılır. Ona görə də həmişə dərs və məşğələlərdə böyük uğurlar qazanılır. Əsgərlərimiz, bir qayda olaraq, təlim-məşqlərdə fəal iştirak edir, hərbi bilikləri dərindən mənimsəyirlər. Böyük uğurları həmişə peşəkarlar qazanırlar. Zaman-zaman bu həmişə belə olub. Biz də çalışırıq ki, əsgərlərimiz hərbi biliklərə yiyələnərək öz ixtisaslarının peşəkarları olsunlar. Bundan sonra isə uğurlara gedən yollarda inamla addımlasınlar. Bilsinlər ki, bu yol onları qələbələrə qovuşduracaq.

Məşğələdə fəal iştirak edən əsgərlərdən Emil Qurbanov, Yusif Rəhimov, İqbal İsayev, Həsən Bayramov və başqaları ilə görüşüb söhbət etdim. Onlar bildirdilər ki, hərbi biliklərə dərindən yiyələnərək gələcək xidmətlərində böyük uğurlar qazanacaqlar. Torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanacaq, babaların, ataların döyüş yollarını şərəf və ləyaqətlə davam etdirəcəklər.

Sıra hazırlığı keçib təcrübəsini artıran əsgərlərə uğurlar arzulayıb onlarla sağollaşıram. Əsgərlər isə məşğələlərini davam etdirirlər. Bir anlıq ayaq saxlayıb müşahidə aparıram. Onlar əsl peşəkarlar kimi addımlayırdılar. Bu inamlı addımlar isə gələcək böyük uğurlardan xəbər verirdi.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Xalqımız sizə güvənir, Azərbaycan əsgəri!



Bu gün Azərbaycan Ordusunun yüksək döyüş hazırlığına malik vətənpərvər ruhlu əsgərləri var. Onlar torpaqlarımızı düşmənlə sərhəddə və təmas xəttində mərdliklə qoruyurlar. Əlbəttə, doğulduğu ana yurdun - Azərbaycanın gecə-gündüz müdafiəsində dayanıb onu düşməndən qorumaq hər bir vətənpərvər oğulun şərəf, vicdan borcudur. Malik Rzayev də düşmənlə təmas xəttində Vətənimizin keşiyində ayıq-sayıq dayanan cəsur, qorxmaz əsgərlərdən biridir. İçdiyi Hərbi anda sadiq, Azərbaycan əsgəri adını şərəflə daşıyan Malik barədə qeydlərimizi ön xətt bölmələrimizin birində döyüş növbəsi aparan zaman götürdük. Öyrəndik ki, M.Rzayev xidmət etdiyi müddətdə komandirlərinin etimadını və böyük rəğbətini qazanıb. Hazırlıqlı əsgər kimi verilən bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirir. Bacarıqlı və nümunəvi əsgər olan Malik hərbi vərdişlərə dərindən yiyələnib. Tabeliyində olan silahın taktiki-texniki xüsusiyyətlərini, ondan istifadə qaydalarını mükəmməl bilir. Atdığı hər bir güllə nəzarətə götürdüyü hədəfin məhvi ilə nəticələnir. Keçirilən təlimlərdə uğurlu göstəriciləriylə komandirlərinin diqqətini çəkən Malik digər əsgər yoldaşlarından fərqlənir.

Əsgər M.Rzayev səngərdə bünövrəsi qoyulan dostluğun, yoldaşlığın möhkəmliyindən danışdı, burada özünə əsl dostlar qazandığını dedi: "Əsgər yoldaşlarım, komandirlərim mənə doğma qardaş tək əzizdirlər. Ön xətdə xidmət etmək nə qədər çətindirsə, o qədər şərəflidir. Vətənimə, torpağıma göz dikən düşməni məhv etməyə hazıram".

Azərbaycan əsgəri adına daima şərəf qazandıran Vətənimizin Malik kimi mərd oğulları Qarabağ müharibəsində, Aprel döyüşlərində hünər göstərən döyüşçülərin davamçılarıdırlar. Onlar gecə-gündüz torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla, Vətənimizi göz bəbəyi tək qoruyurlar. Xalqımız sizə güvənir, Azərbaycan əsgəri!

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Fiziki hazırlıq*

# "Fiziki hazırlığımızı daim artırırıq"

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində günün nizam qaydasına uyğun olaraq şəxsi heyətin fiziki hazırlıq məşğələsi ilə tanış olduq. Müxtəlif idman qurğularında fərqli hərəkətləri icra edən əsgərlərin fiziki cəhətdən hazırlıqlı olması hiss olunurdu.*



Məşğələ rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Həbibulla Süleymanov bildirdi ki, fiziki hazırlıq döyüş hazırlığının tərkib hissəsidir. "Yüksək döyüş hazırlığına malik olan əsgər verilən əmr və tapşırıqları vaxtında yerinə yetirməyə, döyüş meydanında düşməni məhv etməyə qadirdir. Bu səbəbdən də şəxsi heyətin fiziki hazırlığına daim mühüm yer ayrılır. Əsgərlərin fiziki hazırlığının artırılmasını daim diqqət mərkəzində saxlayırıq. İdman məşğələlərinin səmərəli keçirilməsi üçün bütün imkan və vasitələrdən istifadə edirik. Yuxarı komandanlığın şəxsi heyətə göstərdiyi diqqət və qayğı nəticəsində hərbi hissəmizdə idman meydançaları, müasir avadanlıqlarla təchiz olunmuş trenajor sinfi inşa edilib".

- Yaradılan şəraitdən lazımınca istifadə edən əsgərlərimiz fiziki hazırlıq məşğələsi nəticəsində iradəli, güclü, dözümlü və sağlamdırlar. Şəxsi heyətimiz daim fiziki hazırlığını artırmaqla məşğuldur. Əsgərlər dərs prosesində tələb olunan normativləri və müxtəlif idman alətlərində tapşırıqları yerinə yetirməyə çalışırlar. Keçirilən idman yarışlarında əsgərlərimiz yaxşı nəticə göstərir, uğur qazanırlar. Bir çoxları ordu sıralarına çağırılanadək idmanın müxtəlif növü ilə məşğul olublar. Hətta elələri var ki, beynəlxalq, respublika və bir neçə əhəmiyyətli yarışların iştirakçısı olublar. Mən də öz növbəmdə hər zaman çalışacağam ki, bilik və bacarıqlarımı mərd əsgərlərimizlə bölüşüm, onların fiziki imkanlarını daha da artırım. Çünki qarşıda hər birimizi Böyük Qələbə gözləyir, - əsgər Həbibulla Süleymanov dedi.

- Bizim bir məqsədimiz var - torpaqlarımızı işğaldan azad edib, düşmənlərimizdən qisas almaq. Məqsədimizə çatmaq üçün döyüş qabiliyyətimiz yüksək olmalıdır. Günün nizam qaydasına uyğun olaraq komandirlərimizin rəhbərliyi altında idman dərsləri keçirilir. Digər məşğələlərdə olduğu kimi, fiziki hazırlıq məşğələsində də fəal iştirak edir, normativləri yüksək səviyyədə yerinə yetirirəm. Bizlər üçün müasir standartlara cavab verən trenajor zalı və idman meydançası inşa edilib. Yaradılan hərtərəfli şərait bizi qələbəyə daha da ruhlandırır, - deyə əsgər Teymur Məmmədov bildirdi.

Digər həmsöhbətim əsgər Hikmət Novruzov idmanın güləş və futbol növü ilə məşğul olub. "Qarabağ" və "Vətən" futbol klublarında bir sıra uğurlar qazanıb. O bildirdi ki, fiziki hazırlıq sağlamlıqdır. "Fiziki hazırlıq məşğələlərinin sayəsində gücümüzü artırır, döyüş qabiliyyətimizi yüksəldirik. Səbirsizliklə Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik. Çünki şəhidlərimizin qisasını almağın vaxtıdı".

Əsgərlərdən Səbuhi Hüsiyev, Müqəddəs Quliyev, Şamil Nəcəfli və digərləri hərbi xidmətə çağırılana qədər idmanla məşğul olduqlarından, idmanın onların həyatında ayrılmaz yer tutduğunun önəmindən danışdılar. Tez bir zamanda işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad edəcəkləri günün həsrətilə xidmət etdiklərini qeyd etdilər.

Hərbi hissədə yaradılan şərait, şəxsi heyətdə formalaşdırılan ruh yüksəkliyi bizdə xoş təəssüratlar oyatdı. Şahidi olduq ki, torpaqlarımızı etibarlı müdafiə etməyə qadir olan şəxsi heyətimiz var.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# 9K35 "Strela-10" zenit-raket kompleksi



Rusiyanın 9K35 "Strela-10" zenit-raket kompleksi 1976-cı ildə silahlanmaya qəbul edilib. Birbaşa motoatıcı və tank alaylarını hava hücumundan qorumaq üçün təyin edilib. "Strela-10" zenit-raket kompleksi aşağı məsafədən uçan hava hədəflərini məhv etməyə də qadirdir. Hazırda MDB ölkələrinin silahlanmasında yer alır, Avropa, Asiya, Afrika və Latın Amerikası ölkələrinə ixrac edilir. 9K35 "Strela-10" zenit-raket kompleksinin tərkibinə raketlərlə birlikdə döyüş maşını (passiv radiopelenqator) və təchizat vasitələri (nəzarət-yoxlama, texniki xidmət maşınları və xarici elektrik qidalanma aqreqatı) daxildir. "Strela-10" kompleksinin döyüş maşınının bazası üçün çoxməqsədli, tırtıllı MT-LB dartıcı-transportyorundan istifadə edilir. Döyüş maşını modul variantda hazırlanıb. Onun idarəetmə aparatı ilə birlikdə buraxıcı qurğusu fırlanan qüllədə yerləşdirilib. Döyüş maşınının keçidliyinin artırılmasına onun buraxıcı qurğusunun qatlanan olması təsir göstərir. Dünyanın heç bir məşhur zenit-raket kompleksində belə funksiya yoxdur. Səyyar vəziyyətində buraxıcı qurğu yığılmış vəziyyətdə olur. Onun döyüş dəsti səkkiz raketdən ibarətdir. Raketin dördü buraxıcı qurğunun tərpənən hissəsində, qalan dörd raket isə arxa hissədə yerləşdirilib. Sürəti saatda 30 kilometr olmaqla, atəş yerində və ya hərəkət edə-edə atıla bilər. Kompleksin zenit idarəolunan raketi "utka" aerodinamik sxemi üzrə hazırlanıb. O tuşlama başlığından, avtopilotdan, partlayıcı qurğudan, hədəf göstəricidən, hərəkət qurğusundan, konteynerdən ibarətdir. Özütuşlama başlığı iki infraqırmızı və fotokontrast kanalda işləyir. Sonrakı illərdə silahlanmaya bu kompleksin modernləşdirilmiş 9K35M "Strela-10M", 9K35M2 "Strela-10M2", 9K35M3 "Strela-10M3" variantları daxil edilib.



9K35 "Strela-10" zenit-raket kompleksinin döyüş çəkisi 12,3 ton, heyəti üç nəfərdən ibarətdir. Onun korpusunun uzunluğu 6450 mm, eni 2850 mm, səyyar vəziyyətdə hündürlüyü 2220 mm-dir. Kompleks güllə əleyhinə möhkəm zirehlənib. Silahlanmasına 1x7,62 mm PKT pulemyotu və 8 ədəd zenit idarəolunan 9M37 və ya 9M333 raketləri daxildir. Mühərriki V-şəkili 8 silindirli 240 at gücündədir. Şose yolda sürəti saatda 60 kilometr, kəsişmə yerlərdə sürəti saatda 5-6 kilometr təşkil edir. Ehtiyat hərəkət məsafəsi 500 kilometrdir. Asılqanın növü hidravlik amortizatorlu, fərdi torsionludur. Kompleks müxtəlif manevrləri keçməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçuların mülki əhaliyə qarşı törətdiyi daha bir cinayət hadisəsinin üstü açılıb.

İşğalçı Ermənistan ordusunun Madagiz istiqamətində yerləşdirilən hərbi hissəsində xidmət edən Qaqik Ter-Gazaryan və Artur Ohanyan adlı hərbi qulluqçular qısa müddətli məzuniyyətdə olarkən kimsəsiz qadının evini qarət ediblər.

Cinayəti mülki geyimdə törətdiklərinə görə ilk olaraq fakta bağlı mülki prokurorluq araşdırma aparıb.

Oğurluq edənlərin hərbçi olduqları məlum olduqdan sonra isə fakta bağlı başlanılan cinayət işi hərbi polisin müstəntiqlərinə təhvil verilib.

Hərbi polis tərəfindən həbs edilən Q.Ter-Gazaryan və A.Ohanyanın başqa hadisələrdə də əlinin olub-olmadığı araşdırılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçular arasında silah-sursatın hərbi hissələrdən oğurlanaraq satılmasına görə cinayət məsuliyyətinə cəlb edilənlərin sayı çoxalır. Bu günlərdə quldur dəstəyə döyüş sursatlarını satmaqda şübhəli bilinən hərbçi Milli Təhlükəsizlik Xidməti əməkdaşlarının diqqətini cəlb edib.

Ağdərə yaşayış məntəqəsində yerləşdirilən işğalçı ordunun hərbi hissəsində, 2015-ci ildən müqaviləli hərbi xidmətdə olan Artur Poğosyan xüsusi xidmət orqanları əməkdaşları tərəfindən saxlanılıb.

Milli Təhlükəsizlik Xidmətinin Ağdərə üzrə əməkdaşı D.Qriqoryan tərəfindən silah-sursat oğurlayıb satmaqla məşğul olan Artur Poğosyan barəsində sənədlər və məlumatların təqdim edilməsi haqqında hərbi hissəyə sorğu göndərilib.

A.Poğosyandan başqa bu işdə digər hərbçilərin iştirakı araşdırılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində üzləşdikləri qanunsuzluqlar, haqsızlıqlar və yersiz təzyiqlər səbəbindən hərbi xidmətdən yayınanların, eləcə də döyüş növbətçiliyi aparmaqdan imtina edənlərin sayı günbəgün artır.

Ermənistan ordusunda tabor komandirinin müavini - qərargah rəisi vəzifəsində xidmət edən mayor Davit Hayrapetyan hərbi hissəni icazəsiz tərk etdikdən sonra Çəmbərək Hərbi Polisinə gələrək izahat yazmış və həmin hərbi hissədə xidmət etmək istəmədiyini bildirmişdir.

Hadisə araşdırılır. Hərbi polisin rəisi zabitin niyə bu addımı atdığını öyrənmək məqsədilə onunla 2 dəfə görüşüb. Zabit sadəcə xidmət yerinin dəyişdirilməsini tələb edir.

Faktla bağlı, hələlik, cinayət işi başlanılmayıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində vəzifə səlahiyyətlərini aşma, əsgərlərdən qeyri-qanuni pul toplama və rüşvət alma hallarına görə cinayət məsuliyyətinə cəlb edilən zabitlərin sayı durmadan artır. Bu günlərdə əsgərlərdən qeyri-qanuni pul toplamaya görə işğalçı ordunun daha bir zabiti həbs edilib.

Ermənistan ordusunda bölük komandiri vəzifəsində xidmət edən Hovannes Vardanyan vəzifə səlahiyyətlərindən sui-istifadə etdiyinə və əsgərlərdən rüşvət aldığına görə həbs edilib. Şəxsi heyətlə söhbət zamanı məlum olub ki, sonuncu dəfə bölük komandiri H.Vardanyan bölüyün 27 nəfər hərbi qulluqçusundan 6220 min dram pul toplayıb, eləcə də əsgərlər zabitin bu addımı dəfələrlə törətdiyini deyiblər.

Faktla bağlı cinayət işi başlanılıb, araşdırma davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

## Azərbaycanım

Hər yanın al-əlvan bağçadır, bağdır,
Mənim ana yurdum, Azərbaycanım!
Bir doğma balanam, sənin qoynunda
isti yuva qurdum, Azərbaycanım!

Nə qədər bölündün, parçalandın sən,
Alındı torpağın, hey talandın sən.
Od aldın, alışdın, alovlandın sən,
Mərd oldun, mərd durdun, Azərbaycanım!

Tarixlərə qara günlər yazıldı,
Min dərd olub taleyindən asıldı.
Alınmaz qalalar niyə basıldı?
Odlandım, qovruldum, Azərbaycanım!

Sən ki, yaranışdan odsan, ocaqsan,
İşğalı yandıran od olacaqsan.
Bax, onda təzədən doğulacaqsan,
İnamım, umudum, Azərbaycanım.

## Gəlmişəm

Şəhərdən də əl uzadım əlinə,
Doğma kəndin, sorağına gəlmişəm.
Sədası yayılıb Azərbaycana,
Damcılıtək bulağına gəlmişəm.

Bulaqların gözlərinin yaşına,
Göyəzənin torpağına-daşına,
Dolanmağa ömrün boyu başına,
Qurban olam, torpağına gəlmişəm.

Sübhan diqqətlə bax açan güllərə,
Sinəmdə ürəkdi, o dağ, o dərə.
Qəlbimdən keçəni yazdım dəftərə,
Söz deməyə çırağına gəlmişəm.

**Polkovnik**
**Sübhan BƏKİROV**

## Kəlbəcər

Kəlbəcər deyəndə ürəyim yanır,
Ürəyim həmişə oranı anır.
Hey fikirləşirəm bir şey çıxmayır
Niyə kəc gəldi ki, zaman Kəlbəcər?

Yaşıl meşələri, sərin bulağı,
Dərin dərələri, dik yamacları,
Gəzib şənlənməyə gözəl yaylağı,
Aman istəyirdim, aman Kəlbəcər!

Neçələri həsrətin çəkir indi,
Üzərində yad ayaqlar gəzir indi
Öz əllərin, gözəllərin əsir indi
Nə tez viran oldun, aman Kəlbəcər!

Qəmçəkərin ürəyi həmişə ordadır,
Bilirəm sənin də gözün yoldadır.
Hey deyirsən görən bunlar hardadır,
Nədir üryinə daman, Kəlbəcər!

**Mayor**
**Mətləb ƏLƏKBƏROV**

## Gözəl

Sən mənim ömrümə yaz tək gəlmisən,
Sevgi çiçəyini dərmişəm səndən.
Çəkdiyim həsrətlər yadımdan çıxıb,
Tək dərdim olmusan səni sevəndən.

Gecələr yuxumda görürəm səni,
Gündüzlər gəzsəm də görə bilmirəm.
Əlimi uzadıb nə vaxtdan bəri,
Qara tellərini hörə bilmirəm.

Sanma ki, Zaurun qəlbi incikdir,
Hər zaman tək səni anıbdır, gözəl.
Bir quşun budağa qonduğu kimi,
Eşqi də qəlbinə qonubdur gözəl.

**Gizir**
**Zaur SAHİL**

*Könlüm şeir istəyir*

# Öncə Vətəndir!



*Qəzetimizdə bu rubrika ilə şeirlər təqdim etməklə ordumuzun şəxsi heyətinin duyumunu, incə duyğularını, düşüncələrini poetik işıqla daha əhatəli nurlandırmaq istədik. Bu rubrika ilə dərc edilən şeirlər oxucularımızın ruhunu kükrətdiyindən hərbi qulluqçular da, mülki vətəndaşlar da bizə şeirlər göndərirlər. Şeirlərdə vətənpərvərlik kifayət qədər duyğusallıqla hiss edilir. Yəni, oxucularımızın özləri də, şeirləri də "Öncə Vətəndir!", - deyir.*

**"Azərbaycan Ordusu"**

## Mən əsgərəm!

Döyüşlərdə şəhid olan
Oğulların qardaşıyam,
"Vətən!" deyən,
"Bayraq!" deyən oğulların
Sirdaşıyam -
Mən əsgərəm!
Dolan bulud,
Çaxan şimşək,
Yağan yağış -
Döyüş əzmi,
Torpaqların harayını
Eşidənlər bir əmr ilə
Döyüşəcək!
Qazilər də döyüşməzmi? -
Döyüşəcək!
Məmləkətin dağı-daşı
Döyüşəcək!
Şəhidlərin əvəzinə
Şəhid ruhu döyüşəcək,
Şəhid oğlu döyüşəcək!
Mən əsgərəm!
Od etmişəm
Ürəyimi, döyüşəcəm,
Döyüşəcəm,
Əsgər kimi döyüşəcəm!

**Əsgər**
**Mehdi ƏZİZBƏYLİ**

## Mübariz

Bir qəhrəman idin ölümün üzdü hamını,
Ömrünə ömür bildin şəhidlik məqamını,
Getdin alasan şəhidlərin intiqamını,
Heyran elədi dünyanı qeyrətin, Mübariz,
Vətənə olan sevgin, məhəbbətin, Mübariz.

Düşmənləri sən eylədin al qanına qəltan,
Bayraq elədi qeyrətini Azərbaycan.
"Heyrət!", - dedi Doğuda, Batı da, elə hər yan,
Düşmənə qan uddurdu qeyrətin, Mübariz.
Heyran elədi dünyanı qeyrətin, Mübariz.

Yüzlərlə yağının gözünün göz yaşı oldun,
"Qisas!" - deyən hər əsgərin öz sirdaşı oldun,
Onlarla igid qəhrəmanın qardaşı oldun,
Qırdın belini sən onda həsrətin, Mübariz
Heyran elədi dünyanı qeyrətin, Mübariz.

**Əsgər**
**İmran ADIGÖZƏLOV**

## Vətən torpağına

Könlümüzdən keçəni
Düz Vətən torpağına
Göylərin göz yaşını
Süz Vətən torpağına.

Göylərin gözü dolsun,
Yellər saçını yolsun.
Kaş ki, yaraşan olsun
Söz Vətən torpağına.

Axşamdı, qaralar qaş,
Sovuşubdu o təlaş...
Yetir özünü, qardaş
Tez Vətən torpağına.

Siz varsınız, biz varıq,
Zirvə odur, biz qarıq,
Əsl oğul olaraq
Biz Vətən torpağına.

**Əsgər**
**Rəşad ƏLİYEV**

## Dağlar

Yaz günüdü, gül qoxuyur,
Sağım dağlar, solum dağlar.
Kövrəlmişəm a qardaşım,
Bulud kimi dolum, dağlar.

Şəmşir nələr deyib sənə,
Nələr deyib dönə-dönə?!
Bizə doğma nəfəsinə
Mən də qurban olum, dağlar.

Sönən deyil bu od-ocaq
Hər közü bir od olacaq.
Kəlbəcərə aparacaq
Bir gün məni yolum, dağlar.

**Əsgər**
**Yusif RƏHİMOV**

## Azərbaycan əsgəri

Qoymaz Vətənin darda,
Səs verər çətin anda.
Sadiqdir Hərbi anda,
Azərbaycan əsgəri.

Əlində silahı var,
Vətənə sevgisi var.
Düşmənə nifrət duyar,
Azərbaycan əsgəri.

Qurban olum deyərək,
Döyünəcək bu ürək.
Döyüşəcək igid tək,
Azərbaycan əsgəri.

Ana - Vətən bilər də,
Gözlərdən yaş silər də...
Vətən üçün ölər də,
Azərbaycan əsgəri.

**Aydan ASLANLI,**
**Kəlbəcər rayon 20 saylı**
**tam orta məktəbin (Abşeron)**
**VII sinif şagirdi**

# İdman

## Veteran cüdoçumuz Fərhad Rəcəbli 9-cu dəfə dünya çempionu olub



Mərakeşdə veteran cüdoçular arasında dünya çempionatında Azərbaycan cüdoçusu uğurla çıxış edib.

Veteran cüdoçumuz Fərhad Rəcəbli M-7 kateqoriyası üzrə 90 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Bu, idmançımızın usta cüdoçular arasında qazandığı doqquzuncu çempionluqdur.

Qeyd edək ki, veteranlar arasında dünya çempionatı oktyabrın 10-da start götürüb. Yarışda 12 cüdoçumuz mübarizə aparır. Dünyanın 49 ölkəsindən 1100-dən artıq idmançının gücünü sınadığı dünya çempionatına oktyabrın 13-də yekun vurulacaq.

## Nicat Həsənov peşəkar boksda ikinci qələbəsini qazanıb



"Baku Fight Lab" promoutorun dəstəyi ilə peşəkar boksçular arasında keçirilən yarışda təmsilçimiz Nicat Həsənov qələbə qazanıb.

Boksçumuz Özbəkistanın paytaxtı Daşkənddə keçirilən 6 raundluq reytinq görüşünün üçüncü raundunda özbəkistanlı rəqibi Şerzodbek Mamajonovu texniki nokautla məğlub edib.

"Qızıl əlcək" idman klubunun və 1 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin boks üzrə baş məşqçisi, Əməkdar məşqçi Rəhim Allahverdiyev qeyd edib ki, bu, yetirməsinin peşəkar boksda artıq ikinci qələbəsidir.

## Düsseldorfda azərbaycanlı kikboksçunun iştirakı ilə döyüş keçirəcək




Azərbaycan kikboksçusu Bəhram Rəcəbzadə növbəti döyüşünü oktyabrın 12-da Almaniyanın Düsseldorf şəhərində keçirəcək.

Dünyaca məşhur "Glory kikboksinq" turnirində 95 kiloqram çəki dərəcəsində yarışan idmançımızın rəqibi litvalı döyüşçü Sergey Masloboyev olacaq.

Hazırda Kölndə məşqlərini davam etdirən Bəhram Rəcəbzadə əslən Cənubi Azərbaycanın Urmiya şəhərindəndir.

Azərbaycan Kikboksinq Federasiyasının (AKF) rəhbəri Adil Əliyev və AKF-nin vitse-prezidenti Güloğlan Cabbarov döyüşü izləmək və idmançımızı dəstəkləmək üçün Almaniyaya gələcəklər.

## Güllə atıcılığı üzrə Bakı kuboku yarışlarının qalibləri müəyyənləşib



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən "Neftçi" İdman Klubu" İctimai Birliyinin zalında güllə atıcılığı üzrə paytaxt kuboku yarışları keçirilib.

Yarışda 33 idmançı birincilik uğrunda mübarizə aparıb.

On metr məsafəyə PT-4 tipli tapançadan atəşaçma yarışlarında Ruslan Qəhrəmanov birinci olub. Qadınların yarışında isə Kəmalə Yusifova fərqlənib.

PTÇ-4 tipli tapançadan 10 metr məsafəyə atəşaçmada Emil Əhmədov və Nigar Nəsirova qızıl medal qazanıblar.

İlk üç yeri tutan idmançılara Baş İdarə tərəfindən müvafiq dərəcəli diplomlar və medallar təqdim edilib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 611
Nüsxə 3950